# Dəyanət və sədaqət rəmzi olan qadınlarımız



**Ulu öndər Heydər Əliyev deyirdi: "Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti ilə, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi ilə, millətinə, torpağına olan hədsiz məhəbbəti və gözəlliyi, Azərbaycan xalqının xüsusiyyətləri ilə tanınmışdır".**

Xalqımızın mənəvi dəyərlərinin formalaşmasında, inkişafında, qorunub saxlanmasında qadınlarımızın rolu zaman-zaman öz təsdiqini tapmışdır. Zəngin mənəviyyatı, təmkini, sədaqəti ilə hər zaman seçilən Azərbaycan qadını bütün dövrlərdə dəyanət və sədaqət rəmzinə çevrilmişdir. Tariximizin, mədəniyyətimizin, adət-ənənələrimizin daşıyıcısı olan analarımız milli ruhda, qəhrəmanlıq ruhunda əsl vətənpərvər, Vətəninə, xalqına layiq, Vətən yolunda, torpaq uğrunda canından keçməyi bacaran, çoxəsrlik tariximizin salnaməsini yazan mərd, igid, qəhrəman oğullar böyütmüşlər.

Xalqımız hər zaman elmi, biliyi yüksək dəyərləndirmişdir. Bəşər mədəniyyətinə, elminə böyük töhfələr vermiş, onu öz əsərləri ilə zənginləşdirmiş görkəmli alimlərimizi, ixtiraçılarımızı, şair və yazıçılarımızı ərsəyə gətirən isə ömrünü xalqının, millətinin nicatına həsr edən müəllimlər olmuşdur. Hər bir xalqın, millətin gələcəyinin formalaşmasında, onun təşəkkülündə müəllimlərin, öyrədənlərin əməyi danılmazdır.

Belə müəllimlərimizdən biri də Sevda Əliyevadır. O, 1968-ci il iyulun 14-də Qərbi Azərbaycanın Qafan şəhərində anadan olub. 1985-ci ildə Sumqayıtdakı 16 saylı tam orta məktəbi bitirdikdən sonra elə həmin il M.Əzizbəyov adına Neft-Kimya İnstitutuna qəbul olunub. Ali məktəbi əla qiymətlərlə başa vurduqdan sonra gənc mütəxəssis kimi əmək fəaliyyətinə Sumqayıt Kompressorlar Zavodunda 2-ci kateqoriyalı mühəndis kimi başlayıb. Lakin onu təhsil sahəsi daha çox maraqlandırır, bu sahədə işləmək, gənc nəslə təlim-tərbiyə vermək daha çox düşündürürdü. Elə bu arzu, bu istək onu Azərbaycan Müəllimlər İnstitutuna aparmış, sənədlərini yenidən hazırlanma və ixtisasdəyişmə kursuna vermişdir. Pedaqoji sahədə dərin biliyə, təcrübəyə yiyələnmək üçün inadkarlıqla çalışaraq 2000-ci ildə arzuladığı peşəyə - müəllimlik peşəsinə yiyələnmiş informatika və riyaziyyat müəllimi kimi Sumqayıt şəhərindəki 11 saylı məktəbdə əmək fəaliyyətinə başlamışdır. Bir müddət sonra Sumqayıt şəhər 2 nömrəli tam orta məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavini, sonralar isə direktor vəzifəsinə təyin olunan S.Əliyeva gənc nəslə yüksək təhsil verməyi qarşısına ümdə vəzifə qoyaraq hər zaman ona göstərilən etimadı doğrultmağa və ən əsası isə müəllim adını uca tutmağa, bu adı şərəflə daşımağa çalışmışdır.

Xalqımızın, millətimizin gələcəyi olan gənclərə təlim-tərbiyə verən bir təhsil ocağına rəhbərlik etmək böyük bir məsuliyyətdir. Bu məsuliyyəti özündə hiss etmək və buna həssaslıqla yanaşmaq isə müəllim adının ucalığıdır. Sağlamlıq imkanları məhdud olan uşaqlara təhsil vermək, onların təlim-tərbiyəsinə birbaşa cavabdeh olmaq isə ikiqat məsuliyyətlidir. Bu məsuliyyətin qarşısında isə həm peşənə - müəllimlik adına xələl gətirməyən davranış, səbir, dözüm, eyni zamanda isə sevib-seçdiyi peşəyə məhəbbət dayanır. 2019-cu ildən Evdə fərdi təhsil məktəbinə rəhbərlik edən, hələ gənclik illərindən müəllimlik etmək, doğma xalqının övladlarına elm, təhsil vermək arzusu ilə müəllimlik peşəsinə yiyələnən Sevda Əliyeva bu gün öz işini sevə-sevə, həm də böyük diqqət və qayğı ilə yerinə yetirir. Sözsüz ki, bütün uşaqlar sevgiyə qayğıya, diqqətə layiqdirlər. Lakin fiziki və ya əqli qüsurlu uşaqlar isə daha çox sevgiyə möhtacdırlar. Onlara cəmiyyətimizə gərəkli ola biləcəklərini, bunun üçün də ən əsası elm və təhsil almalarının vacibliyini anlatmaq isə o qədər də asan deyil. Bu, müəllimdən böyük ürək, mərhəmət hissi, ən əsası isə pedaqoji təcrübə tələb edir. Bu işin öhdəsindən ləyaqətlə gələn Sevda müəllim sağlamlıq imkanları məhdud olan bu uşaqlara diqqətlə, həssaslıqla yanaşmağı rəhbərlik etdiyi kollektivin hər bir üzvündən tələb edir.

Sumqayıt şəhər Evdə fərdi təhsil məktəbi 2002-ci ilin may ayında ulu öndər Heydər Əliyevin göstərişi ilə yaradılmışdır. Belə ki, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il tarixli fərmanı əsasında "Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısı və evdə təhsilin təşkili Qaydaları" təsdiq olunduqdan sonra məktəb fəaliyyətə başlamışdır. Bu təhsil ocağında 211 fiziki, 90 nəfər isə əqli qüsurlu olmaqla 301 şagird təhsil alır. Onların təhsili ilə 77 nəfərdən ibarət pedaqoji kollektiv məşğul olur. Sağlamlıq imkanları məhdud olan uşaqların təlim-tərbiyəsi ilə məşğul olan pedaqoji kollektivin hər bir üzvü onların hərtərəfli diqqət və qayğı ilə əhatə olunmaları üçün əllərindən gələni əsirgəmirlər. Bu uşaqların təhsildən kənar qalmaması və ən əsası isə onların bacardıqları, gücləri yetdikləri qədər savad almaları üçün məktəbin zəhmətkeş, pedaqoji kollektivi böyük məsuliyyətlə çalışır.

Bu kollektivin böyük əksəriyyəti isə xalqımızın adət-ənənələrini, mədəniyyətini, elmini, intellektual potensialını yüksək səviyyədə təmsil edən qadınlarımızdır.

Biz də bu şərəfli peşə sahiblərinin timsalında qayğıkeş ana, möhkəm iradəli dövlət xadimi, dərin biliyə sahib həkim, yüksək intellektli müəllim olan Azərbaycan qadınlarının hər birini 8 Mart - Qadınlar Günü münasibətilə təbrik edirik. Bayramınız mübarək, əziz qadınlar!

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

**Respublika.- 2022- ci il.- 6 mart.- S. 4.**